

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 76 (22.987)

*25 aprel 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul edib.

Söhbət zamanı Azərbaycan-Rusiya strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olunub, əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, bütün sahələrdə olduğu kimi, təhlükəsizlik sahəsində də əməkdaşlıq uğurla davam edir.

Görüşdə regional təhlükəsizlik məsələləri də müzakirə olunub.

Sergey Narışkin İlham Əliyevi prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik edib, bunu Azərbaycan xalqının böyük etimadı kimi dəyərləndirərək seçkilərin nəticələrini həm də Azərbaycan xalqının qələbəsi kimi qiymətləndirib.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev həm Azərbaycanda, həm də Rusiyada keçirilən son prezident seçkilərinə toxunaraq qeyd edib ki, bütün bunlar Rusiya və Azərbaycan rəhbərliyi tərəfindən həyata keçirilən siyasətə xalqlarımızın verdiyi dəstəyin nümayişidir.

## N.T.Qədimovanın Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Natəvan Tofiq qızı Qədimova Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 aprel 2018-ci il*

## Ə.N.Novruzovun Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əkbər Nadir oğlu Novruzov Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 aprel 2018-ci il*

## Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının şura iclasları keçirilib



Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının şura iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev əvvəlcə respublikamızda bu il aprelin 11-də keçirilən prezident seçkilərinin nəticələrindən danışıb. Qeyd edib ki, ölkəmizdə yüksək səviyyədə baş tutan bu siyasi kampaniyada təşkilat üzvləri də fəallıq nümayiş etdiriblər. Şərur rayonundakı seçicilər seçkilərdə fəallıqları ilə diqqəti cəlb ediblər. Respublika üzrə seçicilərin, ümumilikdə, 86 faizindən çoxunun ölkənin taleyini növbəti dəfə cənab İlham Əliyevə etibar etməsi isə xalq-hakimiyyət birliyinin sarsılmaz olduğunu bir daha sübut edib.

Əmir Babayev daha sonra Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının 2018-ci ilin birinci rübündə gördüyü işlər və qarşıda duran vəzifələrdən danışaraq bildirib ki, iş planına uyğun olaraq idarə heyəti və şura üzvləri fəaliyyətlərini ərazi ilk təşkilatları ilə birgə davam etdirib, yerlərdə sakinlərlə görüşlər keçirib, partiyanın siyasi xəttinin təbliği istiqamətində işlər aparılıb. Həmin görüşlərdə, əsasən, ölkəmizdə, eləcə də muxtar respublikada, o cümlədən Şərur rayonunda regional inkişaf proqramlarının icrası istiqamətində görülən işlərin, tikinti-quruculuq, abadlıq və yaşıllaşdırma tədbirlərinin əhəmiyyəti vurğulanıb, aqrar sahənin inkişafı, yazlıq əkinlərin optimal müddətdə başa çatdırılması, məhsul istehsalının artırılması, daxili bazarın yerli məhsullar hesabına tənzimlənməsi, yaşıllıqlara qulluq və yeni meyvə bağlarının salınması sahəsində qarşıya qoyulmuş vəzifələr və görülən işlər müzakirə olunub. Təşkilat üzvləri yaz iməciliyi çərçivəsində ağacəkmə kampaniyasında, yaşıllıqlara qulluq işlərində də fəallıq nümayiş etdirirlər.

Əmir Babayev bildirib ki, təşkilatın üç ayda 1 şura, 3 idarə heyəti yığıncağı keçirilib. Yığıncaqlarda görülən işlər müzakirə edilib, hər bir ərazi ilk təşkilatının, ümumilikdə, bütün partiya üzvlərinin qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi sahəsində görəcəyi işlər müəyyənləşdirilib.

Məlumat verilib ki, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının tərkibindəki 87 ərazi ilk təşkilatında 10 min 455 partiya üzvü vardır ki, bunların da 3 min 1-ni, yəni 28,7 faizini qadınlar, 3 min 13-nü, yəni 28,8 faizini gənclər təşkil edir. Bu ilin üç ayı ərzində Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunmuş 50 nəfərin 47-si gənclərdir. Ümumiyyətlə, gənclərin partiya sıralarına qəbulu ildən-ilə artan templə müşayiət olunur ki, bu da onların ölkə rəhbərinin apardığı siyasəti dəstəkləmələrinin, iqtidar partiyasının üzvü olmaqdan qürur duymalarının ifadəsidir.

Müzakirələrdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının Zeyvə, Danyeri və Axaməd kənd ərazi ilk partiya təşkilatlarının sədrləri Məhərrəm Rəhimov, Miryəhya Seyidov və Sərxan Quliyev çıxış ediblər.

**Elman MƏMMƏDOV**

* * *

***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatında keçirilən şura iclasında 2018-ci ilin ilk rübünün yekunları müzakirə edilib, qarşıda duran vəzifələrdən söhbət açılıb.***



Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, bu il aprelin 11-də keçirilən növbəti prezident seçkilərində xalqımız bir daha tarixi seçim edərək sabitliyə, inkişafa, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqiyə, demokratik dəyərlərə səs verdi, cənab İlham Əliyevə sarsılmaz etimad göstərdiyini bir daha nümayiş etdirdi.

Vurğulanıb ki, yüksək inkişaf yolunda inamla addımlayan Naxçıvan Muxtar Respublikasında da bu gün əldə olunan nailiyyətlər ulu öndərin yolunun və ideyalarının uğurla davam etdirilməsinin bariz ifadəsidir. Hərtərəfli inkişaf edən respublikamız və onun ayrılmaz tərkib hissəsi olan qədim diyarımız Heydər Əliyev ideyalarının işığında özünün yüksəliş mərhələsini yaşayır. İnkişaf və tərəqqiyə qovuşan Kəngərli rayonunda həyata keçirilən quruculuq tədbirləri nəticəsində başdan-başa abadlaşıb, infrastruktur ən müasir səviyyədə yenidən qurulub.

Sevda Quliyeva vurğulayıb ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının 31 ərazi ilk partiya təşkilatında birləşən 3 min 68 partiya üzvündən 1221-i, yəni 39 faizi qadınlardan, 972-si, yəni 31 faizi isə gənclərdən ibarətdir. 2018-ci ilin ilk rübündə Yeni Azərbaycan Partiyası sıralarına 41 üzv qəbul edilib, bunlardan 29-u qadın, 28 nəfəri isə gənclərdir.

Qeyd olunub ki, partiyanın rayon təşkilatı öz fəaliyyətini ilin əvvəlindən müəyyən olunmuş iş planına və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələbləri səviyyəsində qurub. Vaxtında keçirilən partiya yığıncaqlarında görülən işlərin hesabatı dinlənilib, işin keyfiyyətinin artırılması üçün məqsədyönlü tədbirlər həyata keçirilib. Ərazi ilk partiya təşkilatlarının fəaliyyətinə nəzarət artırılıb, onlara metodik köməkliklər göstərilib. Bununla yanaşı, Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunan partiya üzvlərinin siyasi-ideoloji hazırlığı diqqət mərkəzində saxlanılıb, keyfiyyət amilinə üstünlük verilib. 2018-ci ilin I rübündə təşkilatın 1 şura, 3 idarə heyəti yığıncağı keçirilib.

Diqqətə çatdırılıb ki, bu il Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü qeyd edilir. Bu məqsədlə rayon ərazisində ulu öndər Heydər Əliyevin siyasi irsinin gənclərə öyrədilməsi məqsədilə müvafiq tədbirlər keçirilməli, ərazi ilk partiya təşkilatları fəallıq göstərməlidirlər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Qadınlar Şurasının sədri Xəzəngül Orucova, təşkilatın Gənclər Birliyinin sədri Süleyman Süleymanov, Qıvraq qəsəbə ərazi ilk partiya təşkilatının sədr müavini Vüsalə Musayeva, rayon Elektrik Şəbəkəsi ilk partiya təşkilatının sədri Elmar Səfərov çıxış ediblər.

Şura iclasında müzakirəyə çıxarılan məsələ ilə əlaqədar qərar qəbul olunub.

**Babək İSMAYILOV**

***Naxçıvan Regional Peşə Tədris Mərkəzində keçirilən əmək yarmarkasında Naxçıvan Şəhər Məşğulluq Mərkəzinin direktoru Əli Məmmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı İsmayıl Gülməmmədov çıxış ediblər.***

## Növbəti əmək yarmarkası təşkil olunub



Bildirilib ki, şəhərdə fəaliyyət göstərən dövlət təşkilatları və özəl müəssisələrdəki vakant iş yerlərinin qeydiyyatı aparılıb, yarmarkaya 10 özəl, 46 dövlət olmaqla, cəmi 56 təşkilatdan, 530 boş iş yeri çıxarılıb. Çıxış edənlər muxtar respublikamızda, eləcə də Naxçıvan şəhərində əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən işlərdən söz açaraq bu işlərin əhalinin rifahının yaxşılaşmasında mühüm rol oynadığını qeyd ediblər, işaxtaran vətəndaşların işlə təmin olunmasında əmək yarmarkalarının əhəmiyyətini vurğulayıblar.

Tədbirdə, ümumilikdə, 25 nəfərə işə göndəriş verilib ki, onlardan ikisi kənd xidmət mərkəzlərində işlə təmin olunacaqlar.

Qeyd edək ki, dövlətimizin iqtisadi əsaslarının davamlı olaraq möhkəmlənməsi şəraitində sosial-iqtisadi problemlərin həlli, yoxsulluğun azaldılması, işgüzar fəallığın yüksəldilməsi, habelə məşğulluq tədbirlərinin həyata keçirilməsi istiqamətində muxtar respublikada son illər ərzində uğurlu addımlar atılıb. Məşğulluq tədbirlərinin həyata keçirilməsi də bu istiqamətdə reallaşdırılan işlərin davamıdır.

**Ramiyyə ƏKBƏROVA**

# Dəmiryol nəqliyyatının inkişafı ölkənin müstəqilliyinin və iqtisadi qüdrətinin göstəricisidir

## *Muxtar respublikada bu sahənin inkişafı üçün mühüm işlər görülür*

***Müasir dövrdə nəqliyyatın inkişafı hər bir ölkə və ya ayrılıqda region üçün mühüm əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, lazımi nəqliyyat infrastrukturu yaratmadan heç inkişafa nail olmaq mümkün deyil. Dəmiryol nəqliyyatı isə əsrdən də artıq bir dövrdə yük və sərnişin daşımalarında mühüm potensial istiqamət kimi daha çox diqqət çəkir. Çünki bu nəqliyyat vasitəsilə daha böyük həcmdə yükləri və çox sayda sərnişinləri münasib zaman çərçivəsində daşımaq mümkündür. Bu baxımdan dəmir yolları digər nəqliyyat vasitələrindən bütün parametrlər üzrə mühüm perspektivləri ilə fərqlənir.***




Tarixən Azərbaycan torpaqlarından ayrı düşmüş Naxçıvanda da ötən əsrin əvvəllərindən fəaliyyətə başlamış dəmiryol nəqliyyatı, digər nəqliyyat vasitələri ilə müqayisədə daha tez formalaşmış, Şimal-Cənub və Şərq-Qərb istiqamətlərində daşımaların əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Qədim Naxçıvanın bir çox qonşu ölkələrlə əlaqələrdə mühüm qovşaqda yerləşməsi də, dəmiryol nəqliyyatının strateji əhəmiyyətini daha da artırmışdır. Hazırda isə bu əhəmiyyət müasir dövrün tələblərinə uyğun olaraq daha ciddi maraqları öz üzərinə çəkməkdədir. Buna görə də hazırda muxtar respublikada dəmiryol infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı atılan hər bir addım gələcəyə hesablanıb.

Qeyd edək ki, ötən əsrin 90-cı illərində muxtar respublikanın blokadaya salınmasının ilk siqnalı paytaxt Bakı və Azərbaycanın digər bölgələri ilə dəmir yolu əlaqəsinin kəsilməsi olmuşdur. Blokada qısa müddətdə bütün sahələrə mənfi təsir göstərsə də, bəzi hallarda mühüm iqtisadi potensialı olan infrastruktur bazalarının çökməsinə, məhv olmasına səbəb olsa da, muxtar respublikanın gələcəyi üçün düşünülmüş strateji siyasi xətt bu "deformasiyanın" qarşısını aldı. Nəticədə, bir çoxları üçün gələcək fəaliyyəti çox dumanlı görünən dəmiryol nəqliyyatının potensial bazası qorunub saxlanıldı. Hətta bu nəqliyyat vasitəsinin daxildə hərəkəti təmin olundu. Ötən dövrdə bu sahədə bir çox tədbirlər həyata keçirildi. "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə inkişaf Proqramı" isə muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafında yeni mərhələnin başlanmasına imkan verdi.

Vurğulamaq lazımdır ki, muxtar respublikada aparılan quruculuq işləri sayəsində dəmiryol stansiyalarının sərnişin vağzalı binaları, inzibati və texniki binalar yenidən qurulmuş, müasir dəmir yolu infrastrukturu, hərtərəfli iş və xidmət şəraiti yaradılmışdır. İnfrastrukturun daim yenilənməsi, xidmətin səviyyəsinin yüksəldilməsi dəmiryol nəqliyyatından istifadə edənlərin sayını artırmışdır. Aprelin 2-də isə "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ordubad dəmir yolu stansiyası kompleks quruculuq işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri açılış mərasimində çıxış edərək demişdir: ***"Bu gün ulu öndərin yolunun ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda bütün sahələr inkişaf etdirilir. Bu inkişaf dəmir yolu nəqliyyatından da əhatə etmişdir. Hər bir müstəqil ölkədə ən vacib sahələrdən biri də dəmir yolu nəqliyyatıdır. Çünki dəmir yolu nəqliyyatının inkişafı ölkənin müstəqilliyinin və iqtisadi qüdrətinin göstəricisidir. Blokada şəraitində olmasına baxmayaraq muxtar respublikada da dəmir yolu təsərrüfatı qorunub saxlanılmaqla yanaşı, həm də inkişaf etdirilir".***

Ordubad dəmir yolu stansiyasında yaradılmış müasir şəraitlə tanış olmaq üçün biz də bu günlərdə həmin stansiyada olduq. Adıçəkilən dəmiryol stansiyasının rəisi Maqsud Bağırov bizimlə söhbətində bildirdi ki, muxtar respublikamızda dəmiryol infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı atılan hər bir addım biz dəmiryolçuları çox sevindirir. Ötən əsrin sonlarından Azərbaycanın digər bölgələri ilə əlaqəsi kəsilən dəmiryol nəqliyyatı fəaliyyətimizi məhdudlaşdırsa da, muxtar respublika daxilində işimizi səylə davam etdirməyə çalışmışıq. Son dövrlərdə muxtar respublikada dəmiryol stansiyalarında inzibati binaların, sərnişin vağzallarının əsaslı şəkildə yenidən qurulması isə biz dəmiryolçulara müasir iş şəraiti yaratmaqla bərabər, gələcəyə daha ümidlə baxmağımıza səbəb olub. Ömrünün 30 ildən çoxunu bu peşəyə həsr etmiş müsahibimiz dedi ki, muxtar respublikadakı bir çox dəmiryol stansiyaları kimi, Ordubad dəmir yolu stansiyası da vaxtilə sərnişinlərlə dolub-daşıb. Bəzən digər stansiyalarda qatara gecikən sərnişinlər və yaxud vaxta qənaət etmək istəyənlər avtomobillə bu sonuncu stansiyaya gələrək yollarına davam ediblər.





Maqsud Bağırovla dəmiryol stansiyasında istifadəyə verilmiş yeni quruculuq obyektləri ilə tanış oluruq. Buradakı sərnişin vağzalının binası haqqında danışan həmsöhbətim bildirir ki, əvvəlki bina II Dünya müharibəsindən sonra tikildiyindən, baxmayaraq ki, bir neçə dəfə təmir işləri aparılmışdı – şəraiti yaxşı deyildi. Buna görə də köhnə binanın yerində tamamilə yenisi tikildi və tikilən zaman da digər stansiyalarda olduğu kimi memarlıq ənənələri nəzərə alındı. Hazırda sərnişin vağzalının inzibati binasında 9 iş otağı, gözləmə zalı, zirzəmi hissədə isə bufet və texniki otaqlar yerləşir. Stansiyanın İdarəetmə Mərkəzində isə iş otaqları, anbar, qazanxana və sair var. Eyni zamanda Ordubad Yol Sahəsinin inzibati binasında da işçilər üçün lazımi iş şəraiti yaradılmış, bütün binalar istilik sistemi ilə təmin olunmuş, stansiyanın ərazisində müasir işıqlandırma sistemi qurulmuşdur. Stansiya rəisi yenidən qurulan sərnişin platformaları və ətrafda aparılmış abadlıq işləri haqqında da bizi məlumatlandırır. Qeyd edir ki, yaradılmış müasir iş şəraiti onları səylə işləməyə ruhlandırmaqla yanaşı, qurub-yaradılanlardan daha səmərəli istifadə etməyə çağırır.

Qeyd edək ki, Ordubad dəmiryol stansiyasının kompleks quruculuq işlərindən sonra istifadəyə verildiyi gün daha bir əlamətdar hadisə ilə yadda qalmışdır. Belə ki, həmin gün muxtar respublikanın dəmir yolu təsərrüfatına yeni sərnişin vaqonları da təhvil verilmişdir. Hazırda bu vaqonlardan sərnişin daşınmasında istifadə olunur. Materialı hazırlayarkən bu vaqonlardakı şəraitlə də yaxından tanış olduq. Əvvəlcədən müəyyənləşdirdiyimiz vaxtda Naxçıvan dəmiryol stansiyasında həm Ordubad, həm də Şərur istiqamətində hərəkət edəcək yeni vaqonlarda olduq. Vaqon bələdçisi İlham Mustafayev bizimlə söhbətində dedi ki, yeni sərnişin vaqonları 60 yerlikdir. Yumşaq oturacaqlarla təchiz edilmiş vaqonlar, eyni zamanda istilik və soyutma sistemi ilə, o cümlədən televizor, "Naxtel 4G" mobil operatoru vasitəsilə pulsuz internetlə təmin olunub. Həmçinin vaqonlarda mobil telefonların batareyasını yükləmək üçün əlavə yerlər qoyulub. Bir sözlə, sərnişinlərin rahatlığı üçün hər şey nəzərə alınıb.

Sərnişinlərdən də bir neçəsi ilə tanış oluruq. Famil Salmanov Şərur rayonunun Tumaslı kəndindəndir. Dəmiryol nəqliyyatından tez-tez istifadə edir. Bildirir ki, yeni sərnişin vaqonlarında yol getmək çox rahatdır. Vaqonların televizor və pulsuz internetlə təmin olunması isə vaxtdan səmərəli istifadə etməyə imkan verir. Bəzən mənzilbaşına necə çatdığının fərqində olmursan. Əslən Şərur rayonundan olan və hazırda Bakı şəhərində yaşayan Gülnar Əliyeva isə oğlu ilə rayonun Aralıq kəndinə qonaq getdiklərini bildirir. Yeni vaqonlardan razılıq edir: "Şərura yolumuz düşəndə, adətən, dəmir yolundan istifadə edirik. Bu dəfə isə müasir vaqonların istifadəyə verildiyinin şahidi olduq. İlk dəfədir, belə vaqonların sərnişini oluruq. Düşünürük ki, yolçuluğumuz daha rahat olacaq".

Qeyd edək ki, hazırda muxtar respublikamızın cənub sərhədləri boyunca hərəkət edən sərnişin qatarları bir çox yaşayış məntəqələrindən keçdiyindən həmin məntəqələrin sakinləri davamlı olaraq bu nəqliyyat vasitəsindən istifadə edirlər. Söhbət etdiyimiz sərnişinlərin hər biri yeni vaqonların rahatlığından, onlar üçün yaradılmış şəraitdən, qiymətlərin münasibliyindən, göstərilən xidmətdən razılıq etdilər. Onlar üçün belə bir şəraiti yaratdığına görə dövlətimizə minnətdarlıq edənlər də az olmadı.

*Bəli, bu gün muxtar respublikanın dəmiryol təsərrüfatı özünün yeni inkişaf dövrünə qədəm qoyub. Artıq bir müddətdir, Naxçıvandan İran İslam Respublikasının Məşhəd şəhərinə beynəlxalq sərnişin qatarı işləyir. Yaxın gələcəkdə isə İran İslam Respublikasından keçməklə muxtar respublikanı paytaxt Bakı şəhəri ilə birləşdirəcək dəmiryol xəttinin işə düşməsi gözlənilir. Bu isə Naxçıvanın beynəlxalq və iqtisadi əhəmiyyətini daha da artıracaq.*

✍ **Səbuhi HƏSƏNOV**

---

*İstehsal müəssisələri*

# Sahibkarlığa göstərilən qayğı öz bəhrəsini verməkdədir

## *"Nilay" Şirniyyat Evinin fəaliyyətində bunu daha aydın görmək mümkündür*



Muxtar respublikada iqtisadiyyatın bazar münasibətləri istiqamətində inkişafı insanların sahibkarlığa maraqlarını daha da gücləndirib. Bu istiqamətdə görülən işlər, yaradılan əlverişli şərait onların fəaliyyətlərini genişləndirmələrinə, yeni iş yerləri açmalarına, yerli istehsalı artırmalarına böyük stimul verib. Hazırda muxtar respublikamızda yüzlərlə sahibkar bu fəaliyyət növü ilə məşğul olaraq kiçik istehsal və emal müəssisələri yaradır, daxili bazarı keyfiyyətli yerli məhsullarla təmin edir. Belə müəssisələrdən biri də Kəngərli rayonunun Xok kəndində fəaliyyət göstərən "Nilay" Şirniyyat Evidir.

Yaxın günlərdə adıçəkilən müəssisəyə baş çəkdik. Sahibkar Əhliman Cəfərovla həmsöhbət olduq. O qeyd etdi ki, ilk dəfə bu işə kiçik bir sahəsi olan sexdə başladıq. Lakin sonrakı dönəmdə istehsal etdiyimiz məhsullara tələbat artdı. Sözün düzü, bizim məhsullara tələbatın bu qədər çox olacağını gözləmirdik. Zamanla bu tələbatın ödənilməsi üçün əlavə işçi qüvvəsinə ehtiyac duyulduğundan daha geniş binanın tikilməsi zərurəti yarandı. Digər sahibkarlar kimi, biz də dövlət qayğısından bəhrələndik. 2013-cü ilin mart ayında kənddə iki mərtəbədən ibarət yeni bina inşa etdik. Hazırda binanın birinci mərtəbəsində xammal və hazır məhsulların saxlanılması üçün anbar, lavaş və kürə çörəyi istehsalı sahəsi, satış bölməsi, ikinci mərtəbəsində isə şirniyyat istehsalı sahəsi, iaşə xidməti göstərilməsi üçün yeməkxana, digər yardımçı otaqlar, inzibati heyət üçün ayrı-ayrı iş otaqları yerləşir.

Sahibkar dedi ki, müəssisədə müxtəlif çeşiddə yüksəkkeyfiyyətli məhsullar istehsal etmək məqsədilə Türkiyənin və İran İslam Respublikasının bu sahə üzrə qabaqcıl təcrübəyə malik firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb.

Əhliman Cəfərovun sözlərinə görə, əvvəllər 2-3 çeşiddə məhsul hazırlanan müəssisədə hazırda onlarla müxtəlif növ məhsul istehsal olunur. Burada şirniyyat məhsulları ilə yanaşı, bir neçə növdə çörəklər də bişirilir. Burada kürə çörəyi dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da çörəyin keyfiyyətində mühüm rol oynayır. Onu da qeyd edək ki, müəssisədə qara, ağ və kəpəkli olmaqla, 20 çeşiddən çox çörək istehsal olunur. İnsan orqanizmi üçün vitamin və minerallarla zəngin kəpəkli çörəyə tələbatın daha çox olduğunu deyən müsahibimiz onu da qeyd etdi ki, bu illər ərzində müəssisənin məhsulları yerli bazarda özünə layiqli yer tuta bilib və həmin məhsullar artıq kifayət qədər alıcı toplayıb. Daxili bazarda adıçəkilən şirniyyat növlərinə olan tələbatı ödəmək məqsədilə yaradılmış müəssisədə istehsal edilən məhsullar müxtəlif çəkilərdə qablaşdırılaraq muxtar respublikamızın bütün regionlarında satışa çıxarılır.

Sahibkarla söhbət zamanı öyrəndik ki, burada, həmçinin istehsal prosesinə məhsulların keyfiyyətinə nəzarət təmin edilib. Məhsulların ayrı-ayrı ticarət obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması diqqət mərkəzində saxlanılır. Bunun üçün soyuducu kamera ilə təmin olunmuş xüsusi avtomaşınlar alınıb. Müəssisədə xammalın qəbulundan tutmuş satışa çıxarılmasınadək bütün texnoloji proseslərə, texniki təhlükəsizlik və sanitar-gigiyenik qaydalara ciddi əməl edilir.

Günü-gündən fəaliyyəti genişləndirilən "Nilay" Şirniyyat Evi daxili bazarı müxtəlif çeşidli, keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. İki-üç nəfərlə fəaliyyətə başlayan müəssisədə hazırda xidmət sahələri ilə birlikdə 20-yə yaxın işçi çalışır. Burada həm də işçilərə normal iş şəraiti yaradılıb, onlar xüsusi geyim formaları və servis xidməti ilə təmin olunublar. Bunu işçilər də təsdiq edirlər. Müəssisədə çalışanlardan həmsöhbət olduğum Aynur Əliyeva və Şəms Əkbərova yaradılan şəraitdən razılıqlarını bildirdilər.

Bəli, insan əməyi qiymətləndiriləndə, fəaliyyətinə lazımi şərait yaradıldıqda uğur qazanmaq da çətin olmur. Biznes və investisiya mühitinin getdikcə daha da yaxşılaşdırılması, heç şübhəsiz, muxtar respublikada fəaliyyət göstərən sahibkarları bundan sonra da öz fəaliyyətlərini genişləndirməyə, keyfiyyətli məhsul istehsalına ruhlandıracaq.

✍ **Gülcamal TAHİROVA**

Şamil Qazıyev – 110

# XX əsr Naxçıvanını böyük sevgi ilə yaradan rəssam

***Bu gün muxtar respublikamızda Vətənin və xalqın taleyində, o cümlədən ədəbi-mədəni inkişafımızda mühüm xidmətlər göstərmiş böyük şəxsiyyətlərin yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin tədqiqi və təbliği işinin daha da yaxşılaşdırılması istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. Məhz bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında” 2018-ci il 1 fevral tarixli Sərəncamı görkəmli rəssamın həyat və fəaliyyətinin yenidən tədqiq olunması ilə yanaşı, həm də mədəniyyətimizin öyrənilməsinə xidmət edən mühüm dövlət sənədidir.***



Qeyd etməliyik ki, 2010-cu ildə 18 may – Beynəlxalq Muzeylər Günü münasibətilə Naxçıvan Dövlət Tarix Muzeyində olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov rəssam Şamil Qazıyevin burada nümayiş etdirilən əsərlərinə baxarkən onlarda Naxçıvanın qədim dövrünün real əks olunmasını yüksək qiymətləndirmişdir. Ali Məclis Sədrinin tapşırığına əsasən rəssamın 56 rəsm əsərinin daxil edildiyi albom-kataloq nəfis tərtibatla “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində çap edilərək işıq üzü görmüşdür. 2011-ci il fevral ayının 16-da həmin albom-kataloqun təqdimat mərasiminin keçirilməsi rəssamın yaradıcılığına göstərilən diqqət və qayğının növbəti nümunəsidir. Bundan başqa, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsində də Şamil Qazıyevin yaradıcılığı sistemli şəkildə araşdırılmağa başlanılmış, həm yerli, həm də xarici mətbuatda onun haqqında məqalələr dərc olunmuşdur. Hazırda “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində rəssamın Naxçıvanın tarixinin, adət-ənənələrinin və məişətinin parlaq şəkildə öz əksini tapdığı əsərləri sərgilənir.

Bu il anadan olmasının 110 illiyi tamam olan Şamil Qazıyevin yubileyinin geniş şəkildə qeyd edilməsi də muxtar respublikamızın mədəniyyət və təsviri sənət həyatında mühüm bir hadisə kimi yadda qalacaq. Sərəncama əsasən görkəmli fırça ustasının yubileyi münasibətilə AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə elmi konfrans keçirilib. Konfransda müxtəlif janr və mövzularda birbirindən orijinal, dəyərli sənət əsərləri yaratmış Şamil Qazıyevin yaradıcılığının əhəmiyyəti bir daha vurğulanıb.

Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda görkəmli rəssamın etüd, natürmort, portret, peyzaj, qrafika janrlarında yaratdığı, Naxçıvanın məişət həyatını, qədimliyini və tarixini əks etdirən qiymətli əsərlərindən ibarət sərgi təşkil olunub. Rəssamın yaradıcılığı ilə bağlı tədqiqat işlərinin aparılması, uşaq incəsənət məktəblərində onun Naxçıvan mövzusunda yaratdığı əsərlərə həsr olunmuş ustad dərslərinin keçilməsi və digər bu kimi tədbirlərin təşkili də rəssamın zəngin sənət irsinə göstərilən diqqətin təzahürüdür.

Rəngləri yaradıcılıq sevdası ilə duyduğu üçün Şamil Qazıyevin ilhamla həyat verdiyi müxtəlif janrlı təsviri sənət nümunələri əbədiyaşarlıq qazanıb. Yaradıcılığının ilk illərində portret janrında yaratdığı əsərlər, xüsusilə diqqəti çəkir. Müxtəlif illərə məxsus “Qardaşımın portreti”, “Qadın rəsmi”, “Ata”, “Avtoportret”, “110 yaşlı qoca” kimi əsərlərində rəssamın portret janrındakı istedadı üzə çıxır. 1931-ci ildə Tiflisdə keçirilən səyyar sərgidə nümayiş etdirilən Şamil Qazıyevin “Çoban” portreti hazırda dünyanın nüfuzlu qalereyalarından sayılan Moskvadakı Tretyakov qalereyasında saxlanılır. Şamil Qazıyev natürmort janrında da gözəl əsərlər yaratmışdır. “Güllər”, “Natürmort”, “Meyvələr” kimi əsərləri rəssamın yaradıcılığında xüsusi yer tutur. Onun güllərlə bağlı natürmortları çoxluq təşkil edir. Yağlı boya ilə həyat verdiyi bu gül dünyasında min bir rəngdə təbiət gözəlinin xoş görüntüləri yaradılıb.

Şamil Qazıyevin əsərləri ilə Naxçıvanın XX əsr tarixinin müəyyən elementlərini, tarixi və mədəniyyət abidələrini restavrasiya etmək mümkündür. “Qaçqınlar”, “Molla məktəbi”, “Əlincəqala”, “Lavaş yapanlar”, “Xıncov məhəlləsi”, “Çörəksatan”, “Şəbeh”, “Çalğıçılar”, “Naxçıvanda köhnə həyət”, “Örtülü bazar” və digər əsərlərə baxanda hiss edirsən ki, o, Naxçıvanı ürəkdən sevib və bu torpağın əməksevər insanlarına bağlı olub. Çünki bu əsərlər Naxçıvanla, onun təbiəti, insanları, adət-ənənəsi, tarixi ilə bağlıdır. Təsadüfi deyil ki, 1979-cu ildə Naxçıvan şəhərində Şamil Qazıyevin təşkil olunan fərdi sərgisi haqqında o dövrün mətbuatı belə yazırdı: *“Bu təsvirlərdə Azərbaycanın ən qədim guşəsi olan Naxçıvanın keçmiş tarixinə, etnoqrafiyasına, adətlərinə aid təsəvvürlər öz əksini tapmışdır”.*



*“İnqilabaqədərki Naxçıvan”*



*“Lavaş yapanlar”*

Rəssamın yuxarıda adıçəkilən əsərlərinin əsas qəhrəmanı zəhmətkeş insandır. Tablolarda taxılbiçənlərin, dəyirmançıların, qalayçıların, çarıqçıların, çörəksatanların həyatının müxtəlif məqamları, iş ahəngi, ovqatları əbədiləşdirilib.

...Dahi holland rəssamı Vinsent Van Qoq özünün şah əsəri olan “Kartof yeyənlər” (1883) əsərində sadə adamlar mövzusunu necə zirvəyə yüksəltmişdisə, fikrimcə, Şamil Qazıyevin yaradıcılığında da sadə, zəhmətkeş insanların taleyi və sənəti özünəməxsus orijinal forma alaraq ana xətt kimi keçir. Çöhrələrindən gah sevinc, fərəh, gah da məyusluq, kədər duyulsa da, bu əsərlər onu göstərir ki, naxçıvanlılar halal zəhməti ilə çörək qazanıblar. Ümumiyyətlə, rəssamın bütün əsərlərinin mövzusu vətənpərvərlik, sadəlik və səmimiyyətdir. İnsan qüruru, gələcəyə inam, alın təri və fədakarlıq onun əsərlərinin əsas qayəsini təşkil edir.

Rəssamın əsərlərində həm də qəribə bir poetika var. Onlara baxdıqca hiss edirsən ki, bu əsərlər əsl istedad sahibi olan bir sənətkarın fırçasından çıxıb. Onlar təkcə tarixi-etnoqrafik baxımdan deyil, eyni zamanda bədii-estetik cəhətdən də olduqca qiymətlidir. “Lavaş yapanlar” əsərinin süjeti, kompozisiya quruluşu sadədir, lakin diqqətlə baxanda dərin məntiqi insanı düşünməyə vadar edir. Müəllif incə ştrixlə mövzunu açmağa nail olub. Əsər istər yağlı boya ilə işlənmə texnikası, istərsə də bədii yaradıcılıq cəhətdən çox yüksək sənətkarlıqla yerinə yetirilmişdir. Burada lavaş bişirən 4 qadın təsvir edilmişdir. Qadınların milli geyimləri ilk baxışdan diqqəti cəlb edir. Rəssam bu əsərində tipik Naxçıvan qadınının məğrur, qayğıkeş və zərif obrazını böyük ustalıqla yarada bilmişdir. Kompozisiyanın mərkəzində təsvir olunmuş təndirin işıltısı və təndirdən çıxarılmış isti lavaşların təbii görüntüsü insanda xoş əhval-ruhiyyə yaradır, lavaşbişirmə sənətinin min illərdir ki, Naxçıvanla bağlılığı, qədim diyarımıza xas mətbəx və mədəniyyət nümunəsi olması öz təsdiqini tapır.

Yaxud “Cəhri. Yolda şəhər” tablosuna tamaşa etdikcə insanda nostalji hisslər baş qaldırır. Əsər kifayət qədər cəlbedici və duyğulandırıcıdır. Cəhri kəndinin o illərdəki ab-havası aydın duyulur. Ya da “Örtülü bazar” əsəri... O qədər canlı bir tablodur ki, bəlkə də, o dövr üçün çox sadə görünə bilən bu əsər bu gün üçün olduqca maraqlıdır. “Örtülü bazar” Naxçıvanın bazar və ticarət mədəniyyətinin tabloda əbədiləşən tarixidir.

Sənətkarın əsərlərinə baxdıqca hiss edirsən ki, onun çox güclü müşahidə qabiliyyəti var. Ətrafındakı hər şeyə rəssam gözü ilə baxıb, ən yaxşı olanları hafizəsində yaşadıb, sonradan onları yeni-yeni əsərlərə çevirib. Rəssamın “Qızlar bulağı”, “Naxçıvan. Günbatan vaxtı” əsərləri belə müşahidələrin nəticəsində yaranmışdır. O, Naxçıvanın abidələrini də kətan üzərinə köçürməyi unutmayıb. Məsələn, Əlincə qalasının əyilməzliyi və məğrurluğu rənglərin dili ilə gözəl həllini tapıb.

Görkəmli rəssamın əsərlərini bir tamaşaçı kimi həmişə heyranlıqla seyr etmişəm. Zənnimcə, onun əsərlərinə tamaşa edən hamı bu fikirdədir. Çünki onun yaratdığı əsərlər soyuq şüurun, formal bir texnikanın deyil, XX əsr insanının taleyini duyub düşünmüş, sevinclər və iztirablar keçirmiş bir ürəyin məhsuludur. Elə buna görədir ki, ulu yurdun qədim dövrünün real əks olunduğu bu əsərlərə baxmaqdan doymursan və qeyri-adi hisslərə bürünürsən. Həm də bu rəsmlər insanı düşünməyə vadar edir. Bir anda bugünkü müasir Naxçıvanın mənzərəsi göz önündə canlanır. Bir daha əmin olursan ki, son illər Naxçıvan qədimliyi saxlanılmaqla müasirliyə doğru necə də sürətlə addımlayıb.

Şamil Qazıyevin məhsuldar yaradıcılıq yolu bu gün muxtar respublikada yaşayıb-yaradan rəssamlarımız üçün nümunə sayıla bilər. Şamil Qazıyevin vaxtilə yaratdığı əsərlər XXI əsr insanına XX əsr Naxçıvanı haqqında məlumat verirsə, bu gün yaradılan rəsm əsərləri də gələcək nəsillərə müasir dövrümüz barədə ətraflı məlumat verə bilər.

***Sonda onu da vurğulamaq istəyirəm ki, hansı sənət adamı olursa-olsun, onun yaradıcılığında Vətən amili öndə dayanmalıdır. Bu mənada, rəssam rənglərin möcüzəsində tarixini, mədəniyyətini, qədim adət-ənənələrini kətan üzərinə köçürüb sevdirməli, gələcək nəslə ötürməlidir. Şamil Qazıyevə əbədiyaşarlıq qazandıran da məhz əsərlərində XX əsr Naxçıvanını böyük sevgi ilə yaratmasıdır. Görkəmli rəssamın həyatı və yaradıcılığı, Vətənə bağlılığı, xəlqilik bundan sonra da gənc rəssamlar üçün əsl nümunə olacaq.***

**Sara ƏZİMOVA**
**jurnalist**

---

Naxçıvan xarici mediada

# Qədim diyarımızın mənzərələri xarici turistlərdə maraq doğurur

*Naxçıvana səfər edən hər bir səyyah tarixi abidələr, zəngin mədəni nümunələrimizlə yanaşı, təbiət abidələri və unikal görüntülü landşaft nümunələrini də maraqla izləməkdə, bunlardan dərin təəssürat almaqdadır. Bu təəssüratlara ilin dörd fəslində də gözəl olan Naxçıvanın hər yerində çəkilmiş yüksəkkeyfiyyətli fotoşəkillərlə dünyanın aparıcı media qurumlarının saytlarında və sosial şəbəkələrdə rast gəlmək mümkündür. Naxçıvana səyahət edən əcnəbilərin sayı artdıqca, ölkə mənşəyi çoxaldıqca bu məlumatlar da artmaqdadır.*

Bu yaxınlarda – 8-10 aprel tarixlərində Naxçıvan Muxtar Respublikasına təşkil olunmuş info-tur çərçivəsində səyahət edən turistlər diyarımızın görməli yerlərində olub, öz təəssüratlarını yazılar və fotoşəkillərlə paylaşıblar. Onlardan Turizm Xəbərləri Agentliyinə məxsus *https://travelnews.az* saytında yerləşdirilmiş “Yeraltı dünyanın möcüzəsi – Duzdağ mağarası” başlıqlı yazı maraq doğurur. Yazıda Naxçıvanın Duzdağı, onun müalicə imkanları haqqında geniş məlumat verən müəllif burada çəkilmiş fotoşəkilləri də saytda yerləşdirib.




Turist və səyahətsevərlərin yaxından tanıdığı National Geographic Travelerin *http://www.nat-geo.ru* saytı da Naxçıvanın ecazkar görüntülərinə geniş yer verib. Burada Naxçıvana məxsus unikal günbatımı mənzərələri diqqəti cəlb edir. Haçadağın və Naxçıvan-Ordubad yolu üzərindəki dağlıq mənzərələrin müxtəlif rakurslardan və günün müxtəlif saatlarında çəkilmiş fotoşəkilləri səyahət həvəskarlarını virtuallıqdan reallığa çağıran mühüm cazibə elementlərindəndir.

Naxçıvana səyahət etmək üçün internet şəbəkəsində yerləşdirilmiş konkret turlar isə xarici ölkələrdə Azərbaycanın bu qədim diyarını bir turist gözü ilə kəşf etmək istəyənlər üçün daha da faydalıdır. Belə ki, Almaniya mənşəli *https://www.soviettours.com* saytında nostalji maraqlıları üçün Naxçıvan Muxtar Respublikasına 4 günlük tur-proqramın resepti verilib. Burada əfsanəvi bir yer kimi təqdim olunan Naxçıvanın Ordubad, Batabat, Əshabi-Kəhf, Qarabağlar, Şərur, Duzdağ, Əlincəqala, Gülüstan türbəsi istiqamətlərində həyata keçiriləcək səyahətlərdən, habelə Naxçıvan şəhərindəki muzeylərlə tanışlıqdan turistlərin ala biləcəyi təəssürat və muxtar respublikaya gəlişgediş imkanları haqqında məlumatlar qeyd olunub.

Əsasən, rus istifadəçiləri arasında populyar olan “Odnoklassnik” sosial şəbəkəsində Naxçıvandan bəhs edən yüksək izlənim keyfiyyəti olan video isə hər bir izləyicidə xoş təəssürat yaradır. Belə bir videonun rusiyalı istifadəçi tərəfindən paylaşılması isə əcnəbilərin doğma diyarımıza marağından irəli gəlir.

**Hazırladı: Əli CABBAROV**



# DUZ MUZEYİ

(lirik poema)

Naxçıvanın sinəsində,
Qədim Duzdağ ətəyində
Dünənimə işıq saçan,
Keçmişimdən söhbət açan...
Bir muzey var. Duz muzeyi
Dünyamızın söz muzeyi.

Bu muzeydə daş baltalar,
Daş çapacaq, ... nə desən var.
Hər birisi bir incidir,
Bu yadigar məmulatlar.

Son illərdə öyrənilib
İtib-batmış bu arxivim.
Yerin dərin qatlarından
Çıxarılıb bu tarixim.

Neçə-neçə arxeoloq
Torpağımın hər daşında,
Eraların yaddaşında
Gizli qalmış arxivimi,
O illərin şahidini
Tapmaq üçün külüng çalıb.
Beş min illik tariximə
Tişəsilə işıq salıb.

Aparılan tədqiqatlar
Əridibdir zülmətləri.
Min illərin yuxusundan
Oyadıbdır bu şəhəri.

Nuh babamın daş baltası
Silkələyib bu cahanı.
Tariximə həkk edibdir
Şöhrətimi, ad-sanımı.
Oxuyuram "Duzdağ" adlı
Kitabəmi varaq-varaq.
Uzaq-uzaq eraların
Yaddaşından verir soraq.

Bu torpaqda əcdadlarım,
Soyum, kököm məskən salıb.
Bu mədəndə ulu xalqım,
Min illərlə külüng çalıb.

Mədəniyyət, yeni dövran,
Başlanıbdır bu məkandan.
Nuh babamın yurd saldığı
Nuhdabandan, Naxçıvandan.

Gözəllikdə Naxçıvanım,
Ucalıbdır el gözündə.
İlk yaşayış yeri kimi,
Tanınıbdır yer üzündə.

Neçə-neçə səyyahlar da
Deyib burda öz sözünü.
Tərifləyib Naxçıvanın,
Gecəsini, gündüzünü.

Ulu Tanrı bu torpağa
Tükənməyən sərvət verib.
Yaradanım bu torpağa
Min bərəkət, nemət verib.

Duz nemətim, duz sərvətim,
Yer üzündə ilk kəşfimdir.
Bu mədəndən duz çıxarmaq,
İlk adətim, vərdişimdir.

Bu nemətim insanlara,
Od, su kimi gərək olub.
Ələnibdir narın-narın,
Süfrələrə bəzək olub.

Torpağımın bərəkəti
Doldurulub kisələrə.
Nəql olunub ölkələrə,
Ayrı-ayrı qitələrə.

Ana yurdun hər yerinə,
Guşəsinə etsən səfər.
Nuhla bağlı yer adları,
O illərdən verər xəbər.

O illərin şahididir,
Gəmiqayam, Haçadağım.
Nəbi yurdum, Nuh gədiyim
Nəhəcirim, Nuhdabanım.

O illərin şahididir,
Gəmiqaya təsvirlərim.
O illərin şahididir,
Qayaüstü rəsmlərim.

Gəmiqaya təsvirlərim,
Bu dünyaya baxışımdır.
Qayaüstü rəsmlərim
İlk yazımdır, naxışımdır.

O illərin şahididir,
Tikdirdiyim neçə qala.
Neçə-neçə istehkamlar,
Oğlanqala, Çalxanqala.

Qoç heykəllər memarlığım,
Ən uğurlu nümunəmdir.
Duz mədənim bəşərimə,
İlk sovqatım, ilk töhfəmdir.

Duzdağ adlı mədənimin,
Nüvəsində bir həyat var.
Neçə-neçə xəstələrin,
Dərdinə o çarə qılar.

Bu muzeydə sərgilənən
Duzla bağlı çox incim var.
Ata sözü, inanclarım,
Hər birisi bir yadigar.

Duzla bağlı alqışlarım,
Duzla bağlı qarğışlarım,
Hər birisi nəsihətdir.
Hər birisi bir hikmətdir.

Duzla bağlı müdrik xalqım,
Hikmətamiz çox söz deyib: -
Əziz ana, atamız da,
Övladını duz tək sevib.

Duz-çörəklə qazanmışam,
El içində mən hörməti.
Düz çörəklə qazanmışam,
Dostluqdakı sədaqəti.

Duz mədəni, Duz muzeyim
İlk baharım ilk yazımdır.
Beş min illik tariximə,
Möhür vuran daş yazımdır.

**Rövşən HÜSEYNOV**

## Naxçıvan gömrükçüləri 108 kiloqram heroin aşkar ediblər

Naxçıvan gömrükçüləri külli miqdarda narkotik vasitənin muxtar respublika ərazisindən tranzit keçməklə qaçaqmalçılıq yolu ilə aparılmasına növbəti cəhdin qarşısını alıblar.

Narkotik qaçaqmalçılığı faktı Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə sərhədində yerləşən Şahtaxtı gömrük sərhəd-keçid məntəqəsində qeydə alınıb.

Belə ki, 1966-cı il təvəllüdlü Türkiyə Respublikası vətəndaşı Davut Korkmazın idarə etdiyi 27 V 7249 dövlət nömrə nişanlı DAF markalı yük maşınına rentgen qurğusu vasitəsilə gömrük baxışı həyata keçirilən zaman qoşqunun döşəmə hissəsinin təsvirləri əsasında gizli saxlanc yerləri müəyyən olunub.

Gömrükçülər tərəfindən 27 V 7250 nömrə nişanlı qoşqunun şübhəli hissəsinə fiziki baxış həyata keçirilərkən 106 bükümdə qablaşdırılaraq xüsusi qaydada gizlədilmiş ümumi çəkisi 108 kiloqram narkotik vasitə – heroin aşkar edilərək götürülüb.

Narkotik yüklü avtonəqliyyat vasitəsinin Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə İran İslam Respublikasından Türkiyə Respublikasına gedəcəyi müəyyən olunub. Saxlanılan şəxs ilkin ifadəsində narkotik vasitəni İsfahan şəhərində aldığını, Naxçıvan üzərindən Türkiyəyə keçirməklə Qaziantep şəhərində adı istintaqa məlum olan şəxsə təhvil verəcəyini deyib.

Faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq şöbəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb.

Faktla bağlı araşdırma aparılır.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi əmin edir ki, qaçaqmalçılığa, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri bundan sonra da qətiyyətlə davam etdiriləcək, narkoticarətdə muxtar respublikamızın tranzit kimi istifadə olunmasına imkan verilməyəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

*İdman*

## Polis əməkdaşları arasında keçirilən birincilikdə qaliblər müəyyənləşib

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin idman tədbirlərinin təqvim planına əsasən daxili işlər orqanlarının əməkdaşları arasında sərbəst güləş üzrə birincilik keçirilib.***

Yarışdan bir gün öncə Naxçıvan Muxtar Respublika Stadionunun inzibati binasında yarış iştirakçıları və məşqçilər üçün seminar təşkil edilib. Seminarda çıxış edən Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov yeni qaydalar haqqında idmançıları və məşqçiləri məlumatlandırıb.

Dünən isə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində yarışın açılış mərasimi keçirilib. Tədbirdə çıxış edən Daxili İşlər Nazirliyi Kadrlar şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rəşad Seyidov muxtar respublikamızda idmana və idmançılara göstərilən qayğıdan söhbət açıb, polis əməkdaşları üçün idman məşğələlərinin mütəmadi təşkilinin daim diqqət mərkəzində saxlanıldığını vurğulayıb.

Sonra Daxili İşlər Nazirliyi "İdman" Cəmiyyətinin rəisi, polis polkovniki Cavanşir Salayev Naxçıvan idmançılarının mötəbər yarışlarda əldə etdikləri qələbələri, keçirilən idman tədbirlərinin miqyası və yaradılan infrastrukturu, əməkdaşların hazırlıq səviyyəsinin yüksək olmasını, polis idmançılarımızın təcrübələrini ildən-ilə artırdığını diqqətə çatdırıb.

Sonra yarışlara start verilib.

Reqlamentə əsasən 14 komandanın tərkibində 100-ə yaxın idmançı 7 çəki dərəcəsində mübarizə aparıb. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Rəşad Sadiqov (Daxili Qoşunlar), Mahir Babayev (Naxçıvan



Şəhər Polis İdarəsi), Kənan Əliyev (Daxili Qoşunlar), Orxan Babayev (Sədərək Rayon Polis İdarəsi), Röyal Nəbiyev (Mühafizə Polis Şöbəsi), Elnur Abdullayev (Xüsusi Təyinatlı Əməliyyat taqımı) və Elməddin Abdullayev (Naxçıvan Şəhər Polis İdarəsi) müvafiq olaraq 61, 65, 70, 79, 86, 97 və 125 kiloqram çəki dərəcələrində qalib adını qazanıblar.

Qaliblər Daxili İşlər Nazirliyinin diplomları ilə təltif olunublar.

## Karate-do Federasiyasının yetirməsi dünya çempionatında uğur qazanıb



Türkiyənin İstanbul şəhərində Dünya Şotakan Federasiyasının 9-cu dünya çempionatı keçirilib. Üç gün davam edən çempionatda tatami üzərinə 33 ölkənin idmançıları çıxıb.

Azərbaycan millisinin mundiala yollanan heyətinin tərkibində Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirməsi də mübarizə aparıb. Belə ki, 16-17 yaş qrupunda (-76 kiloqram) Aslan İsmayılov böyük uğura imza atıb. O, şobu-nihon və şobu-sanbon qaydaları üzrə müvafiq olaraq 2-ci və 3-cü yerlərə layiq görülüb.

Sonda idmançımıza təşkilatçılar tərəfindən diplom və medal təqdim edilib.

## Atletimiz yüksək nəticə göstərib



Azərbaycanın bütün bölgələrini əhatə edəcək ağır atletika üzrə respublika çempionatının ikinci seçmə mərhələ yarışları Xırdalan şəhərində davam edir. Yarış şəxsi xarakter daşıyır və yalnız texniki cəhətdən hazırlıqlı idmançılar mübarizə aparırlar. Mərhələ yarışlarında 12-18 və daha yuxarı yaşda olan kişilər və qadınlar, müvafiq yaş qruplarında mübarizə aparır, qaliblər Sinkleyr cədvəli üzrə müəyyən edilir.

Turnirin növbəti günündə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev 85 kiloqram çəki dərəcəsində mübarizəyə qoşulub. Təmsilçimiz bütün rəqiblərindən üstün nəticə göstərərək yarışın qalibi adını qazanıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## "Naxçıvan Tikinti Materialları" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə

26 may 2018-ci il tarixdə saat $12^{00}$-da "Naxçıvan Tikinti Materialları" ASC-nin növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1. Reqlamentin təsdiqi*

*2. Cəmiyyətin Direktorlar Şurasının üzvlərinin və sədrinin, idarə heyəti üzvlərinin və sədrinin seçilməsi*

*3. Cari məsələlər. Yeni istehsalat binasının tikilməsi*

*4. Digər məsələlər.*

Ümumi yığıncaq Babək rayon Araz kəndində yerləşən cəmiyyətin binasında keçiriləcəkdir.

***İtmişdir***

"Naxçıvansığorta" Açıq Səhmdar Cəmiyyətinə məxsus 002932 nömrəli fərdi qəza sığorta şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 301